MahadSunnah

# علو الله على خلقه

# Allahın yaratdıqları üzərinə ucalması


## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri


**Tərcümə edən: İlqar Eyvazoğlu**

Azərbaycan dili

اللغة الأذرية


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Sual: Bəzi insanlar deyir: Allah ﷻ səmaların üzərindədir. Bəzi insanlar isə deyir ki: Allahın ﷻ məkanı yoxdur. Bu məsələdə doğru rəy nədir?

Cavab: Əhli sünnə Allahın ﷻ yaratdıqları üzərinə zatının ucalması məsələsinə Quran, sünnə, icma, ağıl və fitrətdən dəlillər gətirmişdir.

Quranın dəlillərinə gəldikdə isə:

Allahın ﷻ yaratdıqları üzərinə ucalmasına dəlillər müxtəlifdir:

Bəzən ucalmaq, bəzən göydə olmaq, bəzən göydən nəyinsə enməsi, bəzən göyə nəyinsə qalxması və bəzən özünün səmada olması zikr olunub.

- ✓ Ucalığa dair dəlil:

قال تعالى: ﴿سَبِّحِ ٱسۡمَ رَبِّكَ ٱلۡأَعۡلَى ١﴾ [الأَعْلَى : ١]

“Ən Uca Rəbbinin adına təriflər de!”[1]

1 Əla surəsi, 1-ci ayə

- ✓ Göydə olmağa dair dəlil:

قال تعالى: ﴿وَهُوَ ٱلۡقَاهِرُ فَوۡقَ عِبَادِهِۦ﴾ [الأَنْعَام : ١٨]

"O Öz qulları üzərində mütləq hakimiyyət sahibidir".[2]

- ✓ Göydən nəyinsə enməsinə dair dəlil:

قال تعالى: ﴿إِنَّا نَحۡنُ نَزَّلۡنَا ٱلذِّكۡرَ﴾ [الحِجر : ٩]

"Şübhəsiz ki, Zikri Biz nazil etdik".[3]

- ✓ Göyə nəyinsə qalxmasına dair dəlil:

قال تعالى: ﴿إِلَيۡهِ يَصۡعَدُ ٱلۡكَلِمُ ٱلطَّيِّبُ وَٱلۡعَمَلُ ٱلصَّٰلِحُ يَرۡفَعُهُۥ﴾ [فَاطِر : ١٠]

"Gözəl söz Ona tərəf yüksəlir və onu ucaldan yaxşı əməldir".[4]

- ✓ Özünün səmada olmasına dair dəlil:

قال تعالى: ﴿ءَأَمِنتُم مَّن فِي ٱلسَّمَآءِ أَن يَخۡسِفَ بِكُمُ ٱلۡأَرۡضَ﴾ [المُلْك : ١٦]

"Göydə olanın sizi yerə batırmayacağına əminsinizmi?"[5]

Sünnənin dəlillərinə gəldikdə isə, onlarla hədislərdə gəldiyi kimi, Peyğəmbər ﷺ dua edərkən əllərini səmaya qaldırıb.

---

[2] Ənam surəsi, 18-ci ayə
[3] Hicr surəsi, 9-cu ayə
[4] Fatir surəsi, 10-cu ayə
[5] Mulk surəsi, 16-cı ayə

Cariyə hədisində gəlib ki, Peyğəmbər ﷺ ona dedi:

“Allah haradadır?

O, “səmadadır” deyə cavab verdi.

O ﷺ ona “Mən kiməm” deyə sual verdi?

O “Sən Allahın elçisisən” dedi.

Peyğəmbər ﷺ onun sahibinə dedi: Onu azad et, o mömінədir”.[6]

Bu azad olmayan özünün heç nəyi olmayan kəniz bilir ki onun rəbbi səmadadır. Amma Adəm övladlarından zəlalətdə olanları isə Allahın ﷻ səmada olduğunu inkar edirlər. Deyirlər ki: O nə yuxarıda nə aşağıda nə sağda nə də soldadır. Əksinə O hər yerdədir deyirlər.

İcmanın dəlillərinə gəldikdə isə, sələf alimləri Allahın ﷻ zatı ilə səmada olmasına icma etmişlər.

Onların sözlərini İmam Zəhəbi (Allah ona rəhmət etsin) kimi elm əhli “Əl-uluvvu lil-Əliyyil Ğaffər” adlı kitabında nəql etmişdir.

Ağılın dəlillərinə gəldikdə isə, bütün aqil kəslər ucalığın kamillik sifəti olmasında həmrəydirlər.

[6] Muslim 537

Əgər belədirsə, bu, Allah ﷻ üçün təyin edilməlidir. Çünki mütləq kamilliyin hər bir sifəti Allaha ﷻ məxsusdur.

Fitrətin dəlillərinə gəldikdə isə, bu, mübahisə və ya təkəbbürlük mükmün olmayan bir şeydir.

Hər bir insanın fitrətində Allahın ﷻ səmada olması vardır.

Bunun sübutu da, hər bir insanın başına müsibət gəldikdə, bu müsibəətin aradan qalxması üçün Allaha ﷻ yönəlir və o anda qəlbi heç bir tərəfə deyil yalnız səmaya dönməsindədir.

Doğrusu təəccüblü olan orasıdır ki, Allahın ﷻ yaratdıqlarının üzərinə ucalmasını inkar edənlər, dua edərkən əllərinin ancaq göyə qaldırırlar.